## Sosial-iqtisadi uğurlarımız Qəbələyə göstərilən qayğının təzahürüdür

# Rayon icra hakimiyyətinin geniş iclası keçirilmişdir

***Fevralın 9-da Qəbələdə 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2018-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat iclası keçirilmişdir. Geniş müzakirələrin aparıldığı tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Rüfət Əliyev, idarə və müəssisələrin rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri və rayon ictimaiyyətinin təmsilçiləri iştirak etmişlər.***

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək ulu öndərin işıqlı xatirəsini yad etmişlər.





Qəbələ Mədəniyyət Mərkəzində davam edən hesabat yığıncağında rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev 2017-ci ildə sosial-iqtsadi sahədə rayonda görülən işlər barədə ətraflı məruzə etmişdir.

*(Məruzə ötən nömrəmizdə dərc edilmişdir).*

Toplantıdakı çıxışında Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən rergionların sosial-iqtisadi inkişafı siyasətinin ölkədə bütün sahələr üzrə geniş vüsət aldığını bildirmişdir. Respublikanın hərtərəfli inkişafından söz açan Milli Məclisin deputatı ölkə başçısının diqqət və qayğısı sayəsində Azərbaycanın hər yerində olduğu kimi Qəbələ rayonunda da geniş abadlıq-quruculuq işləri həyata keçirildiyini, o cümlədən 2017-ci ilin də bu baxımdan qəbələlilər üçün çox uğurlu olduğunu qeyd etmişdir. Hesabat dövründə rayonda yollar təmir edildiyini, yeni təhsil müəssisələrinin tikildiyini, elektrik və qaz təsərrüfatında yenidənqurma işlərinin aparıldığını diqqətə çatdıran millət vəkili bütün bunların əhalinin maddi-rifahının gündən-günə yüksəlməsinə, onların sosial vəziyyətinin və məişət şəraitinin yaxşılaşmasına xidmət etdiyini vurğulamışdır.

İclasda Prezident Adminstrasiyasının məsul işçisi Rüfət Əliyev 2017 -ci ildə ölkəmizdə sosial-iqtisadi sahədə görülən işlər və qazanılan nailiyyətlər barədə ətraflı məlumat vermişdir.

Sonra rayon maliyyə idarəsinin rəisi Namiq Ağayev, DSMF-nin rayon şöbəsinin müdiri Elçin Əliyev, şəhər 3 nömrəli məktəbin müəllimi Səbinə Zeynalova, turizm və otelçilik üzrə peşə tədris mərkəzinin müəllimi Firuzə Məmmədova çıxış edərək fəaliyyət göstərdikləri sahələrdə 2017-ci ildə əldə olunan uğurlardan, qarşıda duran vəzifələrdən söz açmışlar.

Hesabat iclasında ölkə başçısının tövsiyə və tapşırıqlarına uyğun olaraq qarşıda duran vəzifələrin icrasının təmin olunması üçün müvafiq qərar qəbul edilmiş, yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət ünvanlanmışdır.

Sonda rayonun sosial-iqtisadi inkişafında fərqlənən bir qrup şəxsə Fəxri fərman və qiymətli hədiyyələr təqdim olunmuşdur.

İclası Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə(foto).**
**"Qəbələ"**

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə 2017-ci ilin sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda iştirak edən Qəbələ rayon ictimaiyyəti nümayəndələrinin

# MÜRACİƏTİ

Hörmətli cənab Prezident!

Sizin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı dərin məzmunlu nitqinizdə ötən ildə əldə edilən uğurlar ətraflı təhlil edilmiş, qarşıda duran vəzifələr və onların icrası yolları barədə geniş məlumat verilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş müdrik idarəçilik xəttinin Sizin tərəfinizdən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan sürətli inkişaf və tərəqqi yolunda inamla irəliləyir.

Cənab Prezident, yığıncaqda qeyd etdiyiniz kimi 2017-ci ildə Azərbaycanın dinamik inkişafı sahəsində böyük nailiyyətlər əldə edilmiş, nəzərdə tutulan bütün layihələr vaxtında icra olunmuşdur.

Ötən il ölkəmizdə Sizin rəhbərliyinizlə aparılan islahatlar yeni vüsət almış, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da artmışdır. İqtisadiyyatımızın uğurlu inkişafı, əhalinin rifah halının yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər, regionlarda icra edilən həyati əhəmiyyətli layihələr ölkə əhalisi tərəfindən məmnunluqla qarşılanır. Bunun nəticəsi olaraq xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir ki, bu da ölkəmizdə sabitliyi və təhlükəsizliyi təmin edən əsas amillərdən biridir.

Möhtərəm cənab Prezident!

Sizin təşəbbüsünüzlə 2017-ci il ölkəmizin tarixinə "İslam həmrəyliyi ili" kimi daxil olmuşdur. Bu bir daha sübut edir ki, dünyada tolerant baxışları ilə öndə gedən respublikamız müasir inkişafla yanaşı islam dininə, milli-dini adət və ənənələrinə də sadiqdir.

Şərqdə qurulmuş ilk demokratik respublika olan Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyi münasibətlə Siz 2018-ci ili "Cumhuriyyət ili" elan etmişsiniz. Bu hadisə tariximizə, keşmişimizə böyük hörmət əlaməti olmaqla yanaşı bu günki müstəqil Azərbaycanın Azərbaycan Xalq Cumhuriyyətinin ənənələrinə sədaqətinin rəmzidir.

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanvarın 10-da keçirilən iclasında və Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda Sizin Qəbələdə sosial-iqtisadi sahədə, xüsusən turizmin inkişafı sahəsində əldə olunan nəticələri yüksək qiymətləndirməyiniz, həmçinin 2018-ci ildə rayonumuzda bir sıra mühüm və nəhəng layihələrin həyata keçirilməsi barədə göstərişləriniz bizim üzərimizə böyük vəzifələr qoyur. Sizi əmin edirik ki, biz qəbələlilər Sizin qayğınıza qarşımıza qoyulan vəzifələrin fədakarlıqla yerinə yetirilməsi ilə cavab verəcəyik.

Möhtərəm cənab Prezident!

Sizə Vətənimiz Azərbaycanın daha da inkişaf etməsi, yüksəlməsi, xalqımızın daha firavan gələcəyi uğrunda gərgin və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, uzun ömür, cansağlığı arzu edirik!

Tanrı Sizi qorusun!

***Müraciət Qəbələ rayon ictimaiyyətinin nümayəndələri tərəfindən 9 fevral 2018-ci il tarixdə 2017-ci ilin yekunlarına həsr olunmuş hesabat iclasında qəbul edilmişdir.***

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2018-ci İLİN MART AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Həmzəli kəndi | 06.03.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Topbağ kəndi | 13.03.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Bılıx kəndi | 20.03.2018 | Kənd məktəbi, saat $15^{00}$ |
| Zalam kəndi | 27.03.2018 | Kənd məktəbi, saat $15^{00}$ |

Qəbula təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri dəvət olunurlar.